

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 67 (21.477)

*14 aprel 2016-cı il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitində iştirak etmək üçün Türkiyə Respublikasına işgüzar səfərə gediblər.

* * *

Aprelin 13-də İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafı məmnunluqla vurğulanıb. Strateji əməkdaşlığın bundan sonra da bütün sahələrdə genişlənəcəyinə əminlik ifadə olunub. İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin münasibətlərimizin dərinləşdirilməsi baxımından önəmi diqqətə çatdırılıb. Yüksək səviyyəli görüşlərin əlaqələrimizin möhkəmləndirilməsində rolu, ölkələrimizin energetika və digər sahələrdə qlobal layihələrdə əməkdaşlığının önəmi qeyd edilib.

Söhbət zamanı Dağlıq Qarabağda cəbhə xəttində baş verən son hadisələr və hazırkı vəziyyət müzakirə olunub. İkitərəfli və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## Yaponiyadan gələn nümayəndə heyəti Naxçıvandan xoş təəssüratlarla ayrılıb





***Yaponiyanın Okinava prefekturası parlamentinin sədri Kina Masaharunun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Nümayəndə heyəti ilk olaraq ulu öndərin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.***

Sonra Yaponiyadan gəlmiş nümayəndə heyəti Naxçıvan Şəhər İcra Hakimiyyətində olub. Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov bildirib ki, Naxçıvan şəhəri Naxçıvan Muxtar Respublikasının paytaxtıdır və şəhərin 5 min ildən çox yaşı var.

Qeyd olunub ki, Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyində 87 idarə, müəssisə və təşkilat fəaliyyət göstərir. Şəhərin əsas iqtisadiyyat sahələri sənaye, kənd təsərrüfatı və turizmdir. Şəhərdə 16 qida, 1 mebel, 5 yüngül, 6 metallurgiya, 5 tikinti sənayesi üzrə, ümumilikdə, 33 zavod və fabrik fəaliyyət göstərir. Əhalinin suya olan tələbatının tam ödənilməsi və kanalizasiya şəbəkəsinin yenidən qurulması üçün Azərbaycan və Asiya İnkişaf Bankı arasında imzalanmış kredit sazişinə əsasən irimiqyaslı layihə həyata keçirilib. Bunun nəticəsində şəhər əhalisi keyfiyyətli içməli su ilə təmin olunub, kanalizasiya şəbəkəsi yenidən qurulub.

Bildirilib ki, Naxçıvanda həyata keçirilən mühüm enerji layihələri nəticəsində Naxçıvan şəhəri elektrik enerjisi ilə tam təmin olunur. Bununla yanaşı, əhalinin dövlət idarə və müəssisələrində, özəl sektorda səmərəli məşğulluğu təmin edilir, yeni yaradılan istehsal sahələri hesabına iş yerlərinin sayı ilbəil artır.

Yaponiyanın Okinava prefekturası parlamentinin sədri Kina Masaharu Naxçıvanın onda xoş təəssürat yaratdığını, bu səfərin gələcək birgə planlara və Naxçıvan və Miyakocima şəhərləri arasında hərtərəfli əməkdaşlığın əsasının qoyulmasında mühüm rol oynayacağını bildirib.

Həmin gün Naxçıvan Biznes Mərkəzində yaponiyalı qonaqlarla yerli sahibkarların görüşü olub. Tədbirdə bildirilib ki, qədim tarixi və dövlətçilik ənənələri olan Naxçıvan zəngin təbii ehtiyatlara malikdir. Blokadaya salınmasına baxmayaraq, Heydər Əliyev yolu ilə gedən muxtar respublika son 20 ildə uğurlu inkişafa nail olub. Muxtar respublika 100 faiz təbii qazla təmin edilir. Əgər 1991-ci ildə muxtar respublikada 1 enerji istehsal edən müəssisə var idisə, hazırda belə müəssisələrin sayı 8-ə, ümumi gücü isə 237,4 meqavata çatdırılıb. Naxçıvanda ilk dəfə olaraq 20 meqavat gücündə Günəş Elektrik Stansiyası istifadəyə verilib. Görülən işlərin nəticəsində muxtar respublika elektrik enerjisi idxal edən regiondan enerji ixrac edən regiona çevrilib. Ötən dövrdə sənaye müəssisələrinin sayı 9,6 dəfə artıb. Mövcud resurslardan istifadə edilməklə maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı təyinatlı 858 istehsal və xidmət sahəsinin yaradılmasına nail olunub.

Vurğulanıb ki, son 20 ildə muxtar respublika iqtisadiyyatına 6 milyard 699 milyon manat investisiya yönəldilib. Görülən işlərin nəticəsində ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 87 faizi ötüb.

Sonra yaponiyalı iş adamları ilə naxçıvanlı sahibkarlar arasında qarşılıqlı əlaqələrin qurulması istiqamətində fikir mübadiləsi aparılıb.

Yaponiyalı qonaqlar həmin gün "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətində və Naxçıvan Günəş Elektrik Stansiyasında olublar, həmin müəssisələrin fəaliyyəti ilə bağlı ətraflı məlumatlar alıblar.

Nümayəndə heyəti Naxçıvan şəhəri ilə tanışlıq zamanı Naxçıvan Dövlət Xalça Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, "Naxçıvan" Universiteti və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə də tanış olub.

Duzdağ Fizioterapiya Mərkəzində yaponiyalı qonaqlara buradakı müalicə prosesi haqqında məlumat verilib. Bildirilib ki, bu səhiyyə müəssisəsi bir çox xəstəliklərin müalicəsində əhəmiyyətli şəfa ocağıdır. Buna görə də hər il dünyanın müxtəlif ölkələrindən bura müalicə üçün xeyli insan gəlir.

Yaponiyanın Okinava prefekturası parlamentinin sədri Kina Masaharu "Şərq qapısı" qəzetinə müsahibəsində deyib: "Mən birinci dəfədir ki, Naxçıvana gəlirəm və buranın təbiətinə çox heyran oldum. Burada küçələrin təmizliyi, şəhərin arxitekturası məni valeh etdi. Yaponiyanın Okinava prefekturasında Miyakocima adlanan gözəl bir şəhərimiz var, bu şəhər Naxçıvana çox bənzəyir. Səfərimizin də əsas məqsədi bu şəhərlər arasında qardaşlıq əlaqələrinin qurulmasıdır. Eyni zamanda bildirim ki, biz bura 40 nəfərlik nümayəndə heyəti ilə gəlmişik. Heyətimizin tərkibində şəhər parlamentinin üzvləri və yerli sahibkarlar var. Burada olduğumuz müddətdə gördük ki, Naxçıvanda çox gözəl, müasir tələblərə uyğun istehsal müəssisələri fəaliyyət göstərir. Bu, bizi çox sevindirdi. İnanırıq ki, Naxçıvanla bağlı aldığımız məlumatlar, burada gördüklərimiz əməkdaşlığımızın növbəti mərhələlərində böyük rol oynayacaq".

Qeyd edək ki, yaponiyalı qonaqların Naxçıvana səfəri dünən Naxçıvan Dövlət Universiteti ilə tanışlıqdan sonra başa çatıb.

**✍ Səbuhi HƏSƏNOV**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Nəqliyyat Nazirliyi

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş keçirilib

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi və Dəmiryol nəqliyyatı və təsərrüfatı mühəndisliyi ixtisaslarının tələbələri ilə görüş keçirib. Ali məktəbdə keçirilən tədbiri rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb.

Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov sözügedən sərəncamın icrası məqsədilə ali məktəblə birgə hazırlanan tədbirlər planı barədə məlumat verib.

Qeyd edilib ki, "Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı"na uyğun olaraq ölkəmizdə, o cümlədən muxtar respublikada nəqliyyat-yol kompleksinin yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilib. Son illər muxtar respublikada bir neçə magistral yol beynəlxalq standartlar əsasında yenidən qurularaq ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

Bildirilib ki, son 10 ildə nəqliyyat sektorunun davamlı inkişafı sayəsində yük və sərnişin daşımasının həcmi 2,3 dəfə artıb, 1 beynəlxalq hava limanı, 5 avtovağzal, dünya standartlarına uyğun avtobus parkı tikilib istifadəyə verilib, 50 körpü salınıb, 797 kilometr uzunluğunda yeni avtomobil yolları çəkilib. Son dövrlər nəqliyyat-yol kompleksi üzrə dövlət idarəetməsi sahəsində struktur islahatlar həyata keçirilməkdədir.

Sonda tələbələrin Nəqliyyat Nazirliyinin nəzdindəki müvafiq struktur bölmələrdə təcrübə keçmələri, iş prosesini əsaslı şəkildə mənimsəmələri ilə bağlı təkliflər müzakirə olunub, tələbələrin sualları cavablandırılıb.

**Mehriban SULTAN**

## Gənclər hərbi xidmətə yola salınır

*"Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 mart 2016-cı il tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.*



Mərasimi Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Aparatının Səfərbərlik hazırlığı, səfərbərlik və ehtiyatda olan şəxsi heyətin qeydiyyatı idarəsinin rəisi, polkovnik-leytenant Ziyarəddin Baxşəliyev açıb.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Sultan İsmayılov, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini Emin Səfərov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Sahib Orucov övladının hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiyini bildirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən İbrahim Talıbov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov bildirib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu gün Azərbaycanın, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini sayıqlıqla müdafiə edən müasir və güclü ordusu vardır. Ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizin hərbi qüdrətinin yüksələn xətt üzrə inkişaf etməsi ordumuzun istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadir olduğunu göstərir. Bu yaxınlarda ordumuzun cəbhədə düşmənə layiqli cavabı bunu bir daha sübut etdi.

Xidmət rəisi Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini təbrik edib və əmin olduğunu bildirib ki, övladları ordu sıralarında layaqətlə xidmət keçməklə, hərbi texnikanın sirlərinə yaxından yiyələnməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla onların başını uca edəcəklər.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Qeyd edək ki, həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin ordu sıralarına yolasalma mərasimləri keçirilib.

**Xəbərlər şöbəsi**

*Muxtar respublika iqtisadiyyatının inkişafında bank sektoru mühüm rola malikdir. Ayrı-ayrı sahələrə kreditlər verməklə real sektorun dəstəklənməsi, müxtəlif istehsal və xidmət sahələrinin yaradılması, əhali məşğulluğunun təmin edilməsində banklarımız qarşısında ciddi vəzifələr qoyulub. Məqsəd Naxçıvan Muxtar Respublikasında iqtisadi artımın stimullaşdırılması və əhali tələbatlarının ödənilməsidir.*

## Cari ilin ilk rübü banklarımız üçün uğurlu olub

Muxtar respublikamızda kreditləşmə iqtisadiyyatın müxtəlif sahələri üzrə aparılır. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumatda bildirilir ki, muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafına nail olmaq üçün banklar və kredit təşkilatları tərəfindən bu sahəyə verilən güzəştli kreditlər kənd təsərrüfatı məhsullarının istehsalının artımına, istehsal edilmiş məhsulların ixracına, məşğulluğun artırılmasına səbəb olub. Məlumatda özəl sektorun inkişafı və sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi məqsədilə bank və kredit təşkilatları tərəfindən verilən kreditlərin həcminin genişləndirilməsinin, onların çoxşaxəli və səmərəli olmasının təmin edilməsinin, daha münasib faiz dərəcələrinin tətbiqinin də qarşıya qoyulan mühüm vəzifələr olduğu bildirilir.

Rəqəmlərin dili ilə desək, muxtar respublikanın bankları tərəfindən ümumi kredit qoyuluşu ötən illə müqayisədə xeyli artaraq 1 aprel 2016-cı il tarixə 117 milyon 967 min manat olub. Kredit portfelinin 15 milyon 423 min manatı qısamüddətli, 102 milyon 545 min manatı isə uzunmüddətli kreditlərin payına düşür. Kredit portfelinin 62,2 faizini sənaye, istehsal və kənd təsərrüfatı sahələri üzrə verilmiş kreditlər təşkil edir. Təkcə 2016-cı ilin birinci rübü ərzində verilmiş kreditlərin həcmi isə 9 milyon 607 min manat olub ki, bunun da 4 milyon 450 min manatını qısamüddətli, 5 milyon 157 min manatını isə uzunmüddətli kreditlər təşkil edir. Bu dövr ərzində prioritet istiqamətlərdən biri olan kənd təsərrüfatının inkişafı üzrə kredit qoyuluşunun həcmi 3 milyon 752 min manata, yəni ümumi kreditləşmənin 39,1 faizinə çatıb. Bu kreditlər, əsasən, heyvandarlıq və bitkiçilik, meyvəçilik, arıçılıq və quşçuluğun inkişafına yönəldilib. Real sektorun, fərdi təsərrüfatların inkişafı məqsədilə cari ilin birinci rübü ərzində sahibkarlıq subyektlərinə verilmiş kreditlərin həcmi də artaraq 2 milyon 922 min manata, ümumi kredit portfelinin 30,5 faizinə çatıb.

Bununla yanaşı, muxtar respublika sakinlərinə verilmiş 2 milyon 522 min manat məbləğində şəxsi istehlak və daşınmaz əmlak alınması üçün, 409 min manat məbləğində ipoteka kreditləri də vətəndaşların maddi rifah səviyyəsinin yüksəldilməsində mühüm rol oynayıb.

Bank sektorunun mühüm bir göstəricisi də əhali əmanətlərinin cəlb olunmasıdır. Belə ki, 2016-cı ilin 1 aprel tarixinə əhalinin banklarda yerləşdirilən əmanətlərinin həcmi 6 milyon 835 min manat olub. Milli valyutamız olan manatla yerləşdirilən əmanətlərin həcmi 2 milyon 635 min manat, xarici valyuta ilə yer-



ləşdirilən əmanətlərin həcmi isə manat ekvivalenti ilə 4 milyon 200 min manat təşkil edib. Bu dövrdə milli valyutada olan əmanətlərin həcmində artım qeydə alınıb. 2016-cı ilin ilk üç ayında 23 hüquqi, 6034 fiziki şəxs olmaqla, 6057 müştəriyə yeni bank hesabı açılıb. Ümumilikdə, banklarımız tərəfindən xidmət olunan hesabların 50 min 546-sı işlək hesab olub ki, onların 1381-i hüquqi, 49 min 165-i fiziki şəxsdir.

2016-cı ilin ilk 3 ayı ərzində Mərkəzi Bankın ehtiyat fondundan bankların nağd pula olan tələbatının ödənilməsi məqsədilə 99 milyon 630 min manat nağd pul dövriyyəyə buraxılıb.

Muxtar respublikada iqtisadi inkişaf üçün bank sektoru qarşısına qoyulmuş vacib məsələlərdən biri də elektron ödəniş məkanının genişləndirilməsi və nağdsız pul dövriyyəsinin artırılmasıdır. Belə ki, 2 mart 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"da Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və aidiyyəti dövlət qurumları qarşısında bir sıra vəzifələr qoyulub. Ötən dövrdə bu istiqamətdə xeyli işlər görülməsinə nail olunub. Belə ki, nağdsız ödəniş infrastrukturunun mühüm elementlərindən sayılan POS-terminal şəbəkəsinin genişləndirilməsi işləri muxtar respublikanın şəhər, rayon və kənd mərkəzlərində davam etdirilərək ötən ilin eyni dövrü ilə müqayisədə 179 ədəd artaraq 1 aprel 2016-cı il tarixə 1127 ədədə çatdırılıb. Quraşdırılan nağdsız ödəniş cihazlarının 533 ədədi Naxçıvan şəhərində, 594 ədədi isə rayon və kənd mərkəzlərində yerləşir. Bu dövrdə aktiv ödəniş kartlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 9 faiz artaraq 228 min 739 ədəd olub. 2016-cı ilin 1 aprel tarixinə muxtar respublika üzrə 56 ədədi Naxçıvan şəhərində, 43 ədədi isə rayon və kənd mərkəzlərində olmaqla, cəmi 99 ədəd bankomat quraşdırılıb ki, bu da ötən ilin müvafiq dövrünə olan göstəricidən 6 ədəd çoxdur.

Görülmüş işlərin nəticəsi olaraq nağdsız hesablaşmaların həcmində artım olub. Belə ki, 2016-cı ilin mart ayı ərzində muxtar respublikada aparılmış nağdsız əməliyyatların həcmi 2 milyon 366 min manat təşkil edib ki, bu da ötən ilin mart ayı ərzində aparılmış 1 milyon 330 min manat əməliyyat həcmindən 78 faiz, yəni 1 milyon 36 min manat çoxdur. Ümumilikdə, cari ilin yanvar-mart ayları ərzində aparılmış nağdsız əməliyyatların həcmi 7 milyon 540 min manat olub ki, bu da ötən ilin eyni dövründə əldə olunmuş 4 milyon 211 min manatlıq nağdsız dövriyyədən 79 faiz çoxdur.

Hazırda muxtar respublika sakinləri vergi və rüsumlarını, mobil və stasionar rabitə üzrə xərcləri, internet ödənişləri və gömrük rüsumlarını elektron ödəniş formasında aparmaq imkanı əldə ediblər. Bu sahələrin əhatə dairəsinin genişləndirilməsi və yeni-yeni xidmətlərin elektron ödəniş portallarına birləşdirilməsi istiqamətində işlər davam etdirilir, əhali və sahibkarlar arasında maarifləndirici tədbirlər keçirilir. Bütün bu vəzifələrin yerinə yetirilməsi isə gələcəkdə bank-kredit sisteminin fəaliyyətinin daha da genişləndirilməsində, qeyri-nağd ödənişlərin həcminin artırılmasında və təsərrüfat subyektlərində maliyyə şəffaflığının təmin olunmasında mühüm rol oynayacaqdır.

Əli CABBAROV

## Kiçik sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi öz bəhrəsini verir

### *"Fitonad" tanıtım nişanı ilə müxtəlif çeşidlərdə limonad satışa çıxarılır*

***Muxtar respublikamızda yaradılan əlverişli biznes mühitindən bəhrələnərək yeni emal və sənaye müəssisələri həyata vəsiqə alır, daxili bazarın tələbatına uyğun yüksəkkeyfiyyətli yerli məhsullar istehsal edilir, əhalinin məşğulluğu təmin olunur, maddi rifahı daha da yaxşılaşır. Belə istehsal müəssisələrindən biri də Kəngərli rayonunun Qabıllı kəndində fəaliyyət göstərən "Fitonad" Kiçik Müəssisəsidir. Sahibkar Pərviz Hüseynov bizimlə söhbətində qeyd etdi ki, uyğunlaşdırılmış binada fəaliyyətə başlayan müəssisədə istehsal olunan məhsullara artan tələbatın ödənilməsi, yeni istehsal sahələrinin yaradılması və bunun nəticəsi olaraq əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi, daha müasir texnoloji avadanlıqların alınıb gətirilməsi zərurəti yaranmışdı.***

Digər sahibkarlıq subyektləri kimi, bu müəssisə də dövlət qayğısından bəhrələnmişdir. Kəngərli rayonunun Qabıllı kəndində istehsal müəssisəsi üçün daha əlverişli yerdə torpaq sahəsi ayrılmış, burada müasir layihə əsasında istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, inzibati bina və digər yardımçı otaqlar tikilib istifadəyə verilmişdir. 2014-cü ilin aprel ayında istifadəyə verilən müəssisədə Rusiyadan alınmış gündəlik istehsal gücü 1500 şərti butulka olan istehsal xətti quraşdırılmış, limonad istehsalına başlanmışdır. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə çatdırılması məqsədilə avtomaşın alınmışdır. Təbii ki, yeni istehsal sahələrinin yaradılması daxili bazarın müxtəlif çeşiddə yerli məhsullarla təmin edilməsi ilə yanaşı, əlavə iş yerlərinin açılmasına da imkan verir. Hazırda müəssisədə "Fitonad" tanıtım nişanı ilə müxtəlif çeşidlərdə limonad istehsal olunur. "Fitonad" limonadları mövcud limonad növlərindən fərqli olaraq, insan orqanizmi üçün daha əhəmiyyətli sayılan yeni limonad növləridir. Bitki və meyvə mənşəli limonadlar mövcud limonadlardan tərkibinə, təbiiliyinə, orqanizmə verdiyi enerjinin miqdarına, saxlanma qabiliyyətinə, müalicəvi və bioloji xüsusiyyətlərinə görə fərqlənir. "Fitonad" limonadları Azərbaycanda və digər ölkələrdə istehsal olunan limonad növlərindən həm də resepturasına və normativ-tex-



niki sənədlərinə görə seçilir.

Müəssisənin icraçı direktoru Türkay Cəfərova bildirdi ki, texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə istehsal prosesi suyun və müxtəlif meyvə şirələrinin hazırlanması, qablaşdırılması mərhələlərindən keçməklə aparılır. Müəssisəyə gələn su əvvəlcə qum filtrindən keçirilib çənə yığılır və suyun səviyyəsi rəqəmli şüşə borularla müəyyənləşdirilir. Ümumi tutumu 10 ton olan çəndə su 2 gün saxlanılır. Sonra yenidən filtrdən keçirilərək istehsal sexinə verilir. Suyu boşaldıqdan sonra çən yuyulur, dezinfeksiya edilir. Su soyuducu qurğularda 4 dərəcəyədək soyudularaq filtrdən və ultrabənövşəyi şüadan keçirilib ozonlaşdırıldıqdan sonra istehsal sahəsinə ötürülür. İkinci mərhələdə isə su ilə müxtəlif meyvə şirələri reseptə uyğun qarışdırılıb, ayrı-ayrı çənlərdə müəyyən olunmuş müddətdə və temperaturda saxlanılaraq istehsal xəttinə ötürülür.

Müəssisədə sanitar-gigiyenik qaydalara əməl olunmaqla müxtəlifhəcmli plastik və şüşə butulkalarda 5 növdə – tərxun, armud, üzüm, qızılgül, portağal şirələrindən hazırlanmış "Fitonad" limonadları istehsal edilir. İstehsal olunan limonadlar 250 qramlıq, 0,5, 1 litrlik plastik, 500 və 750 qramlıq şüşə taralarda satışa çıxarılır. Plastik taralar Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının Plastmas Kapsul və Qapaq İstehsalı Müəssisəsindən, şüşə taralar isə Bakı şəhərindən alınıb gətirilir.

Müəssisədə məhsulun keyfiyyətinə laborator nəzarət təmin olunmuşdur ki, burada da suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bir sözlə, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyətə başlayan müəssisədə istehsal prosesi avtomatlaşdırılaraq standartlara uyğun, ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunmuşdur.

"Fitonad" tanıtım nişanı ilə satışa çıxarılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Gələcəkdə müəssisədə istehsal edilən məhsulların ölkəmizin digər regionlarında da satışa çıxarılması nəzərdə tutulur.

"Fitonad" Kiçik Müəssisəsində 5 nəfər daimi işlə təmin edilmişdir. İşçilərə normal iş şəraiti yaradılmış, onlar xüsusi geyim formaları və servis xidməti ilə təmin olunmuşlar. İşçilərdən Zərri Babayeva, Fərqanə Babayeva, Pünhanə Nağıyeva yaradılan şəraitdən razılıqlarını bildirdilər. Qeyd etdilər ki, kəndimizdə istehsal müəssisəsinin yaradılması ilə yeni iş yerləri açılıb. İnanırıq ki, ayrı-ayrı yaşayış məntəqələrində yerli şəraitə uyğun istehsal müəssisələrinin sayı daha da artacaq.

Onu da qeyd edək ki, Kəngərli rayonunun Qabıllı kəndində fəaliyyət göstərən "Fitonad" Kiçik Müəssisəsində istehsal edilən limonadlar az bir vaxtda daxili bazarda özünəməxsus yer tutub.

Naxçıvan şəhərində yerləşən "Araz" şadlıq sarayında keçirilən bir toy şənliyində iştirak edirdik. Məclis iştirakçıları masaya düzülən yerli məhsullardan dadır, hər kəs bu məhsulların keyfiyyətindən razılığını bildirirdi. Yanaşı əyləşdiyim Nəsib kişi: – Müəllim, zəhmət olmasa, mənə də limonad süzün, – deyib bakalı mənə tərəf uzatdı.

Limonad süzdüm, içdi. – Bəh-bəh, qardaş, bu, Gürcüstandan gətirilən şüşə butulkalarda olan limonadların başqa ləzzəti var, – dedi.

– Qonşu, bu, gürcü limonadı deyil. Kəngərli rayonunun Qabıllı kəndində yerləşən "Fitonad" Kiçik Müəssisəsinin istehsal etdiyi "Fitonad" limonadlarıdır.

– "Fitonad" nədir? – deyib üzümə baxdı.

– "Fitonad" həyat deməkdir, o da Naxçıvan məhsullarındadır, – dedim.

Kərəm HƏSƏNOV

***Məlum olduğu kimi, bu il martın 29-da "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində Naxçıvan Muxtar Respublikasında aqrolizinq sahəsində fəaliyyətin təşkili və yaz-tarla işlərinə hazırlığın vəziyyəti ilə əlaqədar keçirilən səyyari müşavirədə muxtar respublikada əkin sahələrinin, meyvə bağlarının, lizinqə verilən kənd təsərrüfatı texnikalarının sığortalanmasının təmin olunması tapşırığı verilib.***

## Kənd təsərrüfatının sığortası məqsədilə maarifləndirici tədbirlərə başlanılıb

Muxtar respublikamızda aqrar sahənin inkişaf etdirilməsi üçün qarşıya qoyulmuş bu vacib tapşırığın icrası məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi Kənd Təsərrüfatı Nazirliyi ilə birgə torpaq mülkiyyətçiləri ilə maarifləndirici tədbirlər keçirməyə başlayıb. İlk olaraq belə tədbirlər Şərur və Sədərək rayonlarında keçirilib.

Muxtar respublikamızın iri kənd təsərrüfatı rayonu olan Şərurda keçirilən tədbirdə rayonun Xanlıqlar, Axaməd, Kürkənd, Oğlanqala, Çomaxtur, Zeyvə kəndlərindən olan fermer və torpaq mülkiyyətçiləri ilə kənd təsərrüfatı sığortasının əhəmiyyəti barəsində söhbətlər aparılıb, baş verə biləcək gözlənilməz hallar nəticəsində sahibkarlara dəyə biləcək maddi zərərlərin qarşılığını ödəmək haqqında məlumatlar verilib.

Bildirilib ki, kənd təsərrüfatı bitkilərinin, bağların məhsullarının sığorta məbləği məhsulun dəyərinin 70 faizi həcmində hesablanır. Mövcud qanunlara əsasən, ölkəmizdə göyərti istisna olunmaqla, tərəvəz sahələrinin, üzüm, meyvə bağları, buğda, arpa, qarğıdalı, dən üçün günəbaxan, kartof, şəkər çuğunduru məhsulları yanğın, dolu, sel, daşqın, şaxta kimi hadisələrdən sığortalanan zaman bağlanılan sığorta müqavilələrində hesablanmış sığortahaqlarının 50 faizi dövlət büdcəsinin vəsaiti, 50 faizi isə sahibkarın hesabına ödənilir. İribuynuzlu malların sığorta məbləği isə bazar qiymətinin 70 faizi həcmində və 6 faiz sığorta tarifi dərəcəsinə uyğun hesablanır. Xırdabuynuzlu heyvanlar üçün isə bu rəqəm 8 faizdir.

Sədərək Kənd Mərkəzində keçirilən tədbirdə də bu kənddə yaşayan fermer və əkinçilərlə maarifləndirici söhbətlər aparılıb. Tədbirdə sədərəkli torpaq mülkiyyətçilərinə sığortanın faydaları haqqında məlumatlar verilərək bildirilib ki, əkin sahələrinin, kənd təsərrüfatı heyvanlarının və kənd təsərrüfatı texnikalarının könüllü sığortası ilə yanğın, sel, dolu, daşqın, şaxtavurma kimi gözlənilməz hadisələrdən sahibkarlara dəyə biləcək maddi zərərlərin əvəzinin ödənilməsi onların işinin uğuru üçün çox vacibdir.

Keçirilən maarifləndirici tədbirlərdən sonra könüllü olaraq öz təsərrüfatlarını sığortalamaq istəyən torpaq mülkiyyətçiləri ilə sığorta müqavilələri bağlanılıb.

Xəbərlər şöbəsi

***2016-cı il ölkəmizdə “Multikulturalizm ili” elan edilmişdir. Mahiyyət etibarilə mühüm əhəmiyyət daşıyan bu hadisə bir daha sübut etdi ki, xalqımız hər zaman insanlıq meyarını üstün tutur, keçmiş ənənələri müasir dövrdə yeni müstəvidə bütün dünyaya təqdim edir. Əslində, insani münasibətlər hazırkı dünyamızda bir çox xalqlar tərəfindən, sadəcə, çağırış kimi zamanın vərəqlərinə həkk olunmasına baxmayaraq, bu dəyərlər əsrlərdir xalqımızın qanında, canında, genində yaşayır və hər gün reallıqlara çevrilməkdədir.***

# Ailə dəyərlərimizdə multikulturalizm izləri

Sözsüz ki, ayrı-ayrı millətlərin, etnik qrupların nümayəndələrinə hörmətin göstərilməsi, onlara humanizmlə yanaşmaq kimi keyfiyyətlər aşılanması, ilk olaraq, insana erkən yaşlarından yaşadığı ailə mühitində valideynlər tərəfindən verilən tərbiyədən asılıdır. Və bu təlim-tərbiyə insanın şüurunda digərlərinə qarşı tolerant yanaşmaq fəlsəfəsini formalaşdırır, başqa millətlərin və etnik qrupların nümayəndələri ilə əmin-amanlıq şəraitində yaşamasını şərtləndirir. Əgər böyüməkdə olan nəslə düzgün tərbiyə verilməzsə, daha doğrusu, ona zorakı elementlər aşılanarsa, əlbəttə, bu şəxs gələcəkdə nəinki etnik fərqi olan insanlara, eləcə də öz soydaşlarına, yaxınlarına və ailə üzvlərinə qarşı mehriban olmayacaq, daim aqressiv, dağıdıcı və zorakı hisslərlə davranış tərzi göstərəcəkdir. Buna görə də ailədə böyüməkdə olan yeni nəslə ailə dəyərlərimiz çərçivəsində öyrədilən həyat tərzi aktuallığını daha da artırır.

Ailə dəyərlərimizi xarakterizə edərkən burada övlad sevgisinin xüsusi önəm daşıdığını görürük. Xalqımıza məxsus ailələrdə övlada olan sevgi, bəlkə də, dünyanın heç bir xalqı ilə müqayisə olunmayacaq qədər güclüdür. Ailə münasibətlərində önəmli məqam olan valideyn-övlad münasibətləri uşaqların mənəvi zənginləşməsində əsas elementdir və təbii ki, valideyn-övlad münasibətlərinin düzgün qurulmasında, ilk növbədə, ata-ananın üzərinə böyük vəzifələr düşür. Multikulturallıq irsdən gələn ənənə olmaqla bərabər, günümüzdə valideyn-övlad münasibətləri çərçivəsində uşaqlara verilən tərbiyədən çox asılıdır. Ailə dəyərlərimizdən olan fədakarlıq, səmimi davranış, hörmət, sevgi, yardım etmək, səbir göstərmək və digər xüsusiyyətlər uşağı bir şəxsiyyət kimi yetişdirir. Düzdür, müasir informasiya texnologiyalarının mənfi tərəfləri bəzən ailə münasibətlərində uşaqların ailə dəyərləri əsasında tərbiyəsini və böyüdülməsini çətinləşdirir. Bu cür problemlərin həllində müsbət model nümunəsi çox əhəmiyyətlidir. Bunun üçün də mümkün olduğu qədər ailədə dəyərlərimizə söykənən müsbət davranış modellərini geniş surətdə təbliğ etmək lazımdır. Ümumi anlayışları və yenilikləri övladına izah etmək, adət-ənənələri qoruyub saxlamaq və onların icrasına nəzarət etmək, televiziya və internet kimi kütləvi informasiya vasitələrindən istifadəni çərçivəyə salmaq ailədə valideynlərin öhdəsinə düşür. Televiziya verilişləri uşaqlara böyük təsir göstərir. Ələlxüsus da ssenarisində hegemonluq, məhvedici çalarlar çoxluq təşkil edəndə. Demək olar ki, bütün uşaqlar kiçik yaşlarından televiziya verilişlərini izləməyə həvəsli olur və mavi ekranda gördüklərini qeyd və şərtsiz qəbul edirlər. Uşağı tərbiyələndirməkdə müsbət nəticələr əldə etmək istəyiriksə, onun yaşına, tərbiyəsinə müsbət təsir göstərəcək televiziya verilişlərinə baxmağa icazə verməli və buna daim nəzarət etməliyik.

Valideynlərin maariflənməsi və mütaliələri sayəsində ailə münasibətlərində uşağın qarşılaşa biləcəyi əngəllər aradan qaldırıla bilər və onlar bəyənilən bir tərzdə böyüyüb kamilləşərlər. Bilməliyik ki, qarşılaşdığımız çətinliklərin çoxu həyatdakı vəzifələrimizi unutduğumuz və ya yetərincə yerinə yetirmədiyimiz üçün meydana çıxır. Hər bir yaş dövrünün özünəməxsus tərbiyə üsulları mövcuddur və hər bir valideyn bu üsulları bilməli və həyata keçirməlidir. Müəyyən yaşdan sonra ailədə böyüyən oğlan və qız uşaqları üçün ayrı-ayrı tərbiyə üsulları tətbiq edilməlidir. Qız uşaqlarına milli dəyərlərimizdən olan qonaqpərvərlik aşılanmalı, süfrə mədəniyyətimiz mənimsədilməlidir. Yüz illər bundan öncə regionumuza gələn tacirlər, səyyahlar xalqımızın qonaqpərvərliyini xüsusi vurğulamışlar. Ailə dəyərlərimizdən biri olan qonaqpərvərlik xalqımızın kimliyini, səxavətini, yüksək mənəvi keyfiyyətlərini əks etdirən və nəsildən-nəslə ötürülərək daim yaşayan müqəddəs adət-ənənədir. Bu nəcib adətin mənəvi mədəniyyətimizdə özünəməxsus yeri vardır. Heç şübhəsiz, əsrlərin, nəsillərin sınağından keçərək bizim günlərədək gəlib çatmış milli dəyərlərimizdən qonaqla, qonaqpərvərliklə bağlı ibrətamiz, yaşarlı adət və ənənələr azərbaycanlılar arasında özünə möhkəm yer tapmış və xalqımızı dünyanın qonaqpərvər xalqı kimi şöhrətləndirmişdir. Xalqımızın başucalığı, şöhrət tacı olan qonaqpərvərliyi multikulturalizm duyğumuzun bariz göstəricisidir.

Ailə münasibətlərinin əsas tərbiyə prinsiplərindən biri də oğlan uşaqlarını zəhmətkeş böyütməkdir. Çünki zəhmətkeş insan saf olur, ətrafındakı insanlara daha qərəzsiz yanaşır, hadisələrə dözümlü və təmkinli münasibət göstərir. Məhz xalqımızın zəhmətə qatlaşmağı bacarması, hər zaman halal yolla çörək qazanmağa meyilli olması multikulturalizmi özündə ehtiva etməsinə imkan yaradır.

Bir sözlə, multikulturalizmi özündə daşıyan ailə dəyərlərimizi ailə münasibətləri vasitəsilə valideynlərin uşaq üzərində qoyduğu təsirləri üç qrupda cəmləşdirmək olar: valideynlər öz nümunəvi xüsusiyyətləri və xalqımızın ailə dəyərlərinə bağlılığı ilə övladının təlim-tərbiyəsi və kamilləşməsi üçün münasib şərait yaradır; valideynlər övladı üçün birinci örnəkdir və övladı onun hər bir hərəkətini, davranışını, ailə üzvlərinə münasibətini eynilə təkrar edir; valideynlər ailə dəyərlərimizi ailədə qorumaqla övladını bu dəyərləri mənimsəməyə yönəldir.

Ailə dəyərlərimizdən biri də inam anlayışıdır. Əslində, insanlığın təməllərini bu prinsip təşkil edir. Keçmişə nəzər yetirsək, görərik ki, Azərbaycan ailəsi həmişə bütöv, möhkəm və uzunömürlü olub. Bu, əsasən, ailə quran tərəflərin bir-birinə olan inamından, sədaqətindən irəli gəlir. Ailədən kənardakı insanlara qarşı da inamın olması, sözsüz ki, mehribançılıq, ədalətli yanaşma, qarşılıqlı hörmət amilini daha da gücləndirir. Əgər ailə möhkəmdirsə, üzvləri qarşılıqlı anlaşma şəraitində yaşayırlarsa, bu ailədə böyüyən uşaqlar daha anlayışlı olacaqlar.

İnsanlara qarşı tolerant olmağı ailələrimizin timsalında şair və yazıçılarımız da öz əsərlərində geniş şəkildə göstərmişlər. Ulu baba və nənələrimizin multikultural dəyərlərlə yaşadığı həyat tərzi Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid kimi mütəfəkkirlərin yaradıcılıq mövzusu olmuş, onlar ailə dəyərlərimizdə olan insana məhəbbəti, ləyaqəti, xalqımızın yaşayış kodeksini yaratdıqları əsərlərində göstərmişlər. Bütün bunlar sübut edir ki, kökü min illərə dayanan ailə dəyərlərimizdə, müasir terminlə ifadə etsək, multikulturalizmin dərin izləri olub və bu, davam etməkdədir.

Müasir dövrümüzdə, qlobal sistemə keçid nəticəsində həm insanların təfəkkür tərzində, həm də yaşayış tərzində ciddi dəyişikliklər baş verib. Təəssüflər olsun ki, bunların bir qismi də arzuolunmayan dəyişikliklərdir. Son dövrlər ailə dəyərlərimizə qarşı təhdidlərin artmasına səbəb kimi müasir informasiya texnologiyalarından mənəvi simamızı saflaşdıracaq istiqamətdə düzgün istifadə olunmamasını, insanların bir-birinə qarşı yadlaşmasını, sosial mühitdən uzaqlaşmanı, ailə dəyərlərimizə zidd yönümlü informasiyanın çoxluğunu və həmin informasiya kanallarına çıxışın asan olmasını da göstərə bilərik. Ancaq xalqımızın ailə dəyərlərindən hesab olunan insanlara qarşı isti münasibəti, nəzakətli davranış və səmimiliyi heç nə dəyişə bilməz; çünki bu, kökdən gəlir, ailələr vasitəsilə nəsildən-nəslə ötürülür.

Ailə dəyərləri əsasında hazırlanmış ölkəmizin ailə qanunvericiliyi dünya praktikasında ən yaxşı humanizm nümunəsidir. Ailə münasibətlərinin yaranması və möhkəmlənməsi, ailə quran tərəflərin hüquq və vəzifələri indiki zamanda hüquq müstəvisində göstərilsə də, əslində, xalqımızın nümayəndələri əsrlərdir ki, öz ailələrində ailənin bütövlüyünü qoruyacaq münasibətləri, uşaqlara qayğını, böyüklərə ehtiramı formalaşdıraraq yaşatmış və günümüzə gətirib çıxarmışdır.

Qədim Şərq və Avropa mədəniyyətinin qovuşduğu regionda yerləşən ölkəmizdə qloballaşma prosesinin mənfi tərəfləri o qədər də hiss edilmir. Əsrlərdən süzülüb gələn milli ənənələrimizə heç bir “beynəlmiləl” adlandırılan müasir vərdiş və davranışlar yapışa bilməz. Ona görə də humanizmi tamlığı ilə özündə ehtiva edən ailə dəyərlərimizi yüksək qiymətləndirən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***“Azərbaycan dünya birliyinə inteqrasiya edir. Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas dəyərlər Azərbaycanın milli dəyərləridir. Bu baxımdan, əgər tarixə də nəzər salsaq, görərik ki, xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır”.***

Buna görə də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi muxtar respublikada ailə dəyərlərini təbliğ etmək üçün rayon və kənd mərkəzlərində gənclər arasında maarifləndirici tədbirlər, ümumtəhsil məktəblərində şagirdlər arasında seminarlar keçirir. Komitə tərəfindən uzunömürlü ailələrin yubileyləri qeyd edilir, onlarla gənclərin görüşü təşkil olunur, yeniyetmə və gənclər arasında müvafiq mövzularda rəsm, inşa yazı müsabiqələri keçirilir, təsiredici broşürlər hazırlanıb paylanılır. Bu işlərin davamı olaraq “Multikulturalizm ili” çərçivəsində komitə tərəfindən muxtar respublikada ilk dəfə olaraq “Ailə dəyərləri” festivalının keçirilməsi nəzərdə tutulmuşdur. Sözsüz ki, belə bir festivalın keçirilməsi ailə dəyərlərimizin gənc nəslin nümayəndələrinə mənimsədilməsində formaca yeni imkanlar yaradacaq, cəmiyyətdəki yerini daha da möhkəmləndirəcəkdir.

*Ailə dəyərləri bu gün dünyada mövcud olan xalqların sayı qədər müxtəlif və rəngarəngdir. Hər bir cəmiyyətin inkişafı üçün özək dəyər olan ailə dəyərlərinə hakim olması mütləqdir. Bu, xalqların özünün təsdiqi, digərlərinə təqdiminin əsasıdır. Bizim də ailə dəyərlərimiz, çoxlarından fərqli olaraq, həm əxlaqi, həm də tərbiyəvi xüsusiyyətləri özündə cəmləşdirib və multikulturalizmin bünövrəsidir. Bugünkü cəmiyyətin formalaşması, onun əsası olan əxlaqi, mənəvi dəyərlərin hamısı ailə dəyərlərimizdən qaynaqlanır. Ailə dəyərlərimiz daha geniş təbliğ olunduqca, gənc ailələrdə möhkəmləndikcə dünyaya multikulturalizm töhfəmiz də artacaqdır.*

**Sahir RÜSTƏMOV**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri***

# Təhsil kurikulumları: praktik tətbiqlər

## *Bu mövzuda elmi-praktik konfrans keçirilib*

***Naxçıvan Müəllimlər İnstitutunda “Təhsil kurikulumları: praktik tətbiqlər” mövzusunda keçirilən respublika elmi konfransının plenar iclasını ali təhsil ocağının rektoru, professor Oruc Həsənli açıb.***



O bildirib ki, Azərbaycan müstəqillik qazandıqdan sonra demokratik, müstəqil ölkənin əsas prinsiplərinə uyğun yeni, müasir tələblərə cavab verən təhsil sisteminin qurulmasına başlanılıb. Ənənəvi təhsil sistemi artıq öz dövrünü başa vurub, yerini yeni kurikulum təhsil sisteminə verib.

Qeyd edilib ki, Azərbaycan təhsil sistemində milli və ümumbəşəri dəyərlər nəzərə alınaraq ilk dəfə “Azərbaycan Respublikasında ümumi təhsilin Milli Kurikulumu” hazırlanıb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli qərarı ilə “Azərbaycan Respublikasında Ümumtəhsil Konsepsiyası (Milli Kurikulumu)” təsdiq edilib. Bu sənəd çərçivə sənədi olub, ümumtəhsil üzrə məzmun standartlarını və təlim nəticələrini, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri əhatə edir.

Yeni fənn kurikulumları özünün səciyyəvi xüsusiyyətləri ilə fərqlənir. Fənn kurikulumları nəticəyönümlü xarakterə malikdir. Kurikulum təhsil sistemi hər bir fənn üzrə məqsəd, vəzifə, məzmun, texnologiya və qiymətləndirmə məsələlərini əhatə edir.

Bildirilib ki, kurikulumların Naxçıvan Muxtar Respublikasında öyrənilməsini və tətbiqini əməli olaraq həyata keçirmək məqsədilə Naxçıvan Müəllimlər İnstitutunda beş ilə yaxındır, Kurikulum Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzdə kurikuluma, fəal interaktiv təlim metodlarına, təlim texnologiyalarına aid olan 5000-ə yaxın elektron variantında informasiya bankı yaradılıb, müxtəlif tədris materialları, slaydlar, fənlərin tədrisinə aid metodik vəsaitlər toplanılıb. Tədrisin keyfiyyətinin yüksəldilməsinə birbaşa təsir edən bu materiallar muxtar respublikamızın müəllimlərinə kurslar, seminarlar, treninqlər, elmi-praktik konfranslar keçirilərkən təqdim olunur.

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun müəllimlərindən dosent Kamal Camalovun “Mollanəsrəddinçilər düşündürərək öyrətməyin üsul və vasitələri haqqında”, dosent Tofiq Məmmədovun “Təhsildə kurikulum strategiyasına dair”, Naxçıvan şəhərindəki 12 nömrəli uşaq bağçasının müdiri Sevinc Səfərovanın “Məktəbəqədər təhsilin müasir problemləri”, Şərur rayon Zeyvə kənd tam orta məktəbinin müəllimi Fərmayıl Əsgərovun “İbtidai siniflərdə müəllim-şagird münasibətləri”, Kəngərli rayon Xok kənd tam orta məktəbinin direktoru Emin Məmmədxanlının “Məktəbdə müasir kurikulumun təşkili təcrübəsindən” mövzularında məruzələri dinlənilib.

Sonra konfransın bölmə iclaslarına başlanılıb. “Ümumtəhsil məktəblərində şəxsiyyətyönümlü kurikulumların tətbiqi yolları”, “Nəticəyönümlü kurikulumların tətbiqi”, “Kurikulumların tətbiqində dərs nümunələri”, “Məktəbəqədər müəssisələrdə kurikulumların tətbiqi yolları” və “Kurikulumda strategiyalar” adlı bölmələrdə Naxçıvan Müəllimlər İnstitutunun, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun, Naxçıvan və Gəncə Dövlət universitetlərinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının, muxtar respublikanın ümumtəhsil məktəblərinin və məktəbəqədər tərbiyə müəssisələrinin əməkdaşlarının kurikulumla bağlı müxtəlif mövzularda məruzələri dinlənilib, fikir mübadiləsi aparılıb.

✍ **Muxtar MƏMMƏDOV**

# Əmək pensiyaçılarına daha bir qayğı

Ölkəmizdə bütün təbəqələrdən olan insanlara, o cümlədən əmək pensiyaçılarına göstərilən diqqət və qayğı yüksək səviyyədədir. Bu isə insanların sosial müdafiəsinin gücləndirilməsində, onların həyat tərzinin yaxşılaşdırılmasında, yaşayış səviyyəsinin yüksəldilməsində başlıca amildir. Ölkə başçısının 2016-cı il 16 yanvar tarixli “Əmək pensiyasının baza hissəsinin artırılması” və 2016-cı il 25 yanvar tarixli “Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında” sərəncamları bunun təzahürüdür.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan aldığımız məlumata görə, “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli və “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2016-cı il tarixli sərəncamları bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı xarakter aldığını göstərir. Həmin sərəncamlara əsasən, bu kateqoriyadan olan şəxslərin aylıq vəzifə (tarif) maaşları 1 fevral 2016-cı il tarixdən orta hesabla 10 faiz artırılıb.

Məlumatda bildirilir ki, “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.5-ci maddəsinə uyğun olaraq həmin sərəncamların icra olunması məqsədilə Naxçıvan Muxtar Respublikası üzrə Müdafiə Nazirliyi və Daxili İşlər Nazirliyinin xətti ilə əmək pensiyası alan pensiyaçıların pensiyalarının artırılması üçün 2016-cı ilin mart ayında Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Hərbi qulluqçular və xüsusi rütbəli şəxslərlə iş bölməsi tərəfindən müvafiq hesablamalar aparılıb. Bölmə tərəfindən mərkəzləşmiş qaydada muxtar respublika üzrə bu kateqoriyadan olan bütün növ əmək pensiyaçılarının pensiyalarının orta hesabla 10 faiz artırılması təmin edilib.

Hesablanmış artımlar 2016-cı ilin aprel ayının pensiya ödənişində, fevral və mart aylarının artımları da daxil olmaqla bu kateqoriyadan olan əmək pensiyaçılarının plastik bankomat kartlarına köçürülüb.

**Xəbərlər şöbəsi**

*Mütəxəssis sözü*

# Kartofun məhsuldarlığı əkinin aqrotexniki qaydalara uyğun aparılmasından asılıdır

***Kənd təsərrüfatının əsas sahələrindən biri olan əkinçiliyin strukturuna nəzər saldıqda strateji əhəmiyyətinə görə dənli taxıl bitkilərindən sonra ikinci yeri kartof tutur. Kartof ən qiymətli kənd təsərrüfatı bitkilərindən biridir. Təsadüfi deyil ki, onu el arasında “ikinci çörək” də adlandırırlar. Bu məhsuldan ilboyu istifadə olunduğu üçün ona ərzaq kimi həmişə tələbat vardır. Muxtar respublikanın torpaq-iqlim şəraiti kartofçuluğu inkişaf etdirməklə əhalinin ilboyu yerli kartof məhsulu ilə təmin olunmasına imkan verir.***



Uzun illərin təcrübəsi və aparılan təhlillər göstərir ki, kartof əkinlərinə düzgün aqrotexniki qulluq göstərdikdə vahid sahədən başqa bitkilərə nisbətən daha artıq gəlir götürmək olur. Yadda saxlamaq lazımdır ki, kartofun becərilməsində hər hansı bir aqrotexniki tədbiri aparmadıqda və ya yubatdıqda, bu, məhsuldarlığa 70-80 faizə qədər mənfi təsir göstərir. Belə vəziyyəti aradan qaldırmaq üçün bütün aqrotexniki tədbirlər vaxtında və keyfiyyətlə yerinə yetirilməlidir. Kartof münbit, dənəvər, havanı yaxşı keçirən, yüngül, az və orta gilli torpaqları sevir. Bu bitkinin qida maddələrinə tələbatı böyükdür.

Kartof torpaqdan 26 adda qida elementləri götürür. Bu ərzaq məhsulu üçün ən yaxşı sələf bitkiləri kimi payızlıq buğda, arpa, çoxillik paxlalılar, xiyar və sair bitkilərdir. Kartofun öz fəsiləsindən olan (kartof, pomidor, bibər, badımcan və sair) bitkilərdən sonra əkilməsi məsləhət deyildir. Çünki birtərəfli qidalanma getdiyi üçün həm sahələrin qida elementlərinə tələbatı çox, həm də eyni fəsilənin bitkiləri olduğu üçün bu sahələrdə xəstəlik və ziyanvericilər daha artıq olur.

Kartof əkiləcək sahənin hazırlanmasına payızda başlamaq lazımdır. Sələf bitkiləri yığılan kimi sahəyə hər hektara 20-30 ton hesabı ilə üzvi gübrə verilməli, sahə 28-30 santimetr dərinlikdə şumlanmalıdır.

Kartof üzvi və mineral gübrələrə tələbkar bitkidir. Ona görə də gübrələmə sisteminə əsas və əlavə, yəni yemləmə şəklində verilən gübrələr daxildir.

Bəzən mülkiyyətçilər torpaqda qida maddələrinin balansını mineral gübrələrin hesabına ödəməklə kifayətlənirlər. Yadda saxlamaq lazımdır ki, üzvi gübrə torpağı mikroelementlərlə zənginləşdirməklə yanaşı, torpaqda gedən mikrobioloji prosesləri də fəallaşdırır ki, bu da bitkilərin böyüyüb inkişaf etməsi üçün əlverişli şərait yaradır. Buna görə də şum altına üzvi gübrələrin verilməsi vacib aqrotexniki tədbirlərdən biridir.

Kartofun qida maddələri ilə təmin olunmasında mineral gübrələrin də rolu böyükdür. Muxtar respublika şəraitində kartof əkini sahəsinə təqribi hesablamalara görə fiziki çəkidə 250-300 kiloqram azot, 300-400 kiloqram fosfor, 100-150 kiloqram kalium verilməsi məsləhətdir. Mineral gübrələr elə verilməlidir ki, bitki ondan vegetasiyanın sonuna qədər bütün inkişaf mərhələlərində istifadə edə bilsin. Payızda şum altına fosfor gübrəsi normasının 60 faizi verilməlidir. Azot və kalium gübrələrinin 50 faizi, fosforun 40 faizi torpağa erkən yazda əkindən qabaq, qalan hissələri isə qönçələmənin başlanğıcında əlavə yemləmə kimi verilməlidir.

Kartof bitkisindən yüksək məhsul götürülməsinin başlıca şərtlərindən biri də əkin materialıdır. Əkin üçün istifadə olunacaq yumrular standarta uyğun, sağlam, cücərmə qabiliyyətinə malik və yüksək reproduksiyalı olmalıdır. Əkiləcək toxumların 40-50 qram və daha artıq çəkili olması məsləhətdir.

Əkindən qabaq yumruların cücərdilməsi çox vacib aqrotexniki tədbirdir. Bu, onların torpaq səthinə tez çıxmasına şərait yaradır və cücərdilməsi kartofun vegetasiya müddətini qısaldaraq bitkinin inkişaf dövrünü tez başa vurmasına səbəb olur.

Maşınla əkilən kartof toxumunun cücərdilməsi əl ilə əkilən toxumun cücərdilməsindən fərqli olmalıdır. Belə ki, kartof toxumları 0,3-0,5 santimetrə qədər cücərdilərək əl ilə əkilə bilər. Ancaq maşınla əkilən toxumlar cücərtilər göründüyü andan etibarən əkin aparılmalıdır.

Cücərdilmiş yumrular cücərdilməmiş yumrulara nisbətən 30-40 sentner çox məhsul verir. Kartofun məhsuldarlığı əkin müddətindən də çox asılıdır. Əkin müddəti gecikdirildikdə yumruların əmələ gəlməsi isti vaxta düşür və məhsuldarlıq azalır. Yüksək məhsul almaq üçün onu erkən yazda torpaq-iqlim şəraiti imkan verən kimi mütləq cücərdilmiş yumrularla əkmək məsləhətdir.

Əkinə hazırlıq işlərinin son mərhələsi toxumun əkinqabağı dərmanlanmasıdır. Əkinqabağı toxumun dərmanlanması yumruların çıxışvermə qabiliyyətini 7-8 faiz tezləşdirərək bitkilərin xəstəliklərə qarşı davamlılığını ən azı 2-3 dəfə artırır. Bunun üçün 0,3 kiloqram poliram 100 litr suda həll olunur və bu məhlulda 2,5-3,5 ton kartof isladılaraq 10 dəqiqədən sonra toxum əkilir.

Əkin sxemi cərgəarası 70 santimetr, bitkiarası 30-35 santimetr olmaqla aparılır. Bu sxem kartofun yetişkənliyindən də asılıdır. Tezyetişən sortlar gecyetişən sortlara nisbətən sıx əkilir. Torpağın 10-15 santimetr dərinliyində temperatur 7-8 dərəcə isti olduqda toxumlar 6-7 santimetr dərinlikdə basdırılmalıdır.

Kartof yumruları əkildikdən sonra, əgər hava yağıntılı keçərsə və torpaqda nəmlik tutumu yüksək olarsa, həmin sahəni suvarmağa ehtiyac yoxdur. Əks halda, çıxışı tezləşdirmək üçün sahə mütləq suvarılmalıdır.

Toxumluq kartof yumrularının iri və xırdalığından, eləcə də əkin üsulundan asılı olaraq, hər hektara əkin norması 2,5-3,5 tona qədərdir.

Kütləvi çıxış alındıqdan sonra bitkilərə qulluq olunmalıdır. Kartof kollarının boyu 18-20 santimetrə çatanda birinci dibdoldurma, sonrakı becərmələr isə tələbata uyğun olaraq aparılır. Kartof çiçək açmağa başladıqda ikinci dibdoldurma həyata keçirilir.

Kartofu çiçəkləmə fazasına qədər torpağın nəmliyindən asılı olaraq 1-2 dəfə suvarmaq kifayətdir. Çiçəkləmə fazasında suya tələbat çoxaldığından havanın temperaturundan, quraqlıqdan asılı olaraq kartof sahələri həftədə bir dəfə suvarılmalıdır.

Kartofa göstərilən əsas qulluq işlərindən biri də xəstəlik və ziyanvericilərə qarşı vaxtında mübarizə aparmaqdır. Əgər bu tədbir vaxtında aparılmazsa, çoxlu məhsul itkisinə səbəb ola bilər.

Muxtar respublika şəraitində kartofa ən çox ziyan vuran fitoftora xəstəliyi və kolorado böcəyidir. Fitoftora xəstəliyinə qarşı bordo, ridomil preparatlarından 2,5 kiloqram/hektar normada istifadə etməklə xəstəliyin qarşısını almaq mümkündür.

Kartofa ən çox ziyan verən ziyanverici kolorado böcəyidir. Kolların üzərində böcəyin sürfələri müşahidə olunduqda konfidor, arrivo, desis karate və sumi-alfa preparatlarından biri ilə çiləmə aparılmalıdır.

Kartofun qorxulu zərərvericilərindən biri də kartof güvəsidir. Bu zərərverici kartof yumruları 40-60 qram olan zaman və məhsul yığımına az qalmış daha çox zərər verir, kartof yumrularını zədələyir. Zədələnmiş yumrular növbəti vegetasiya suvarmaları zamanı qaralır. Fermerlər bunu bəzən xəstəlik və ya çox suvarma ilə əlaqələndirirlər. Amma bu, sadəcə, kartof güvəsinin vurduğu ziyandır. Kartof güvəsinə qarşı hər hektara 1 litr normasında diazinon və ya 300-400 qram konfidor çilənməlidir. Çiləmə kartof güvəsinin yumurta qoyduğu və sürfələr çıxdığı vaxt aparılmalıdır.

Əgər sahədə məftil qurdları müşahidə edilərsə, bu zaman yemləmə gübrəsi ilə birlikdə hər hektara 5 kiloqram rigent preparatı gübrəyə qarışdırılaraq sahəyə verilməlidir.

Kartofun yığımı sortundan və əkin vaxtından asılı olaraq iyun-iyul və avqust aylarında aparılır. Yığımdan 1-2 həftə əvvəl kartof sahəsində bitkinin yerüstü hissəsi biçilib götürülməlidir. Bu əməliyyat kartof qabığının bərkiməsinə kömək edir, yumruların xəstəliklərə tutulması faizini azaldır.

*Kartof əkinlərinin vaxtında və keyfiyyətlə aparılması üçün torpaq mülkiyyətçilərinin toxuma olan tələbatının təmin edilməsi vacib şərtlərdən biridir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən gətirilmiş və muxtar respublikanın torpaq-iqlim şəraitində sınaqdan çıxmış, yüksək məhsul verən santa və qranula sortlu kartof toxumlarının nazirliyin anbarlarında münasib qiymətə satışı həyata keçirilir. Sahibkarlar kartof toxumu almaq üçün həmin ünvana müraciət edə bilərlər.*

**Ədalət HÜSEYNOV**
*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı*

***İnsan psixologiyası onun hər bir idman növü ilə məşğul olmasına imkan verir. Sadəcə, bu durumu tənzimləmək insanın öz iradəsindən asılıdır. Bəzi idman növləri var ki, onları gün ərzində özümüzdən asılı olmayaraq həyata keçiririk. Bu növlər, adətən, idman dünyasında isinmə hərəkətləri kimi ad qazanıb. Bilmədən, hazırlaşmadan idmanla məşğul olmaq insan psixologiyasına da təsir göstərir. Psixoloji durum, adətən, gərgin olduğunda insan istər-istəməz əl-qol hərəkətləri edir ki, bu da orqanizmdə olan mənfi enerjinin “dəfn” olunması ilə yekunlaşır.***

*Sağlam həyat*

# Orqanizmi möhkəmləndirən, psixoloji durumu tənzimləyən hərəkətlər

İnsan orqanizminin möhkəmlənməsi həm də onun psixoloji durumunun yaxşılaşması, tənzimlənməsi deməkdir. Bəs buna hansı idman növləri ilə nail olmaq mümkündür? Bu məqsədə çatmaq üçün insan orqanizmində kalorini yandırıb, vücudu bərkidən bir neçə hərəkət etmək lazımdır. Təbii ki, bunun üçün insan mütəmadi olaraq məşq etməli, normal yatmalı və sağlam qidalanmalıdır.

### Əsas hərəkətlər

*İplə hərəkət:* bu hərəkəti insanlar, adətən, kiçik yaşlarından edirlər. İplə hərəkətdən, tullanmadan, demək olar ki, hər yerdə istifadə edilməlidir. Çox maraqlıdır ki, iplə hərəkət zamanı hər dəqiqə itirilən kalori digər məşqlərdən daha çoxdur.

*Çöməlmə:* bütün bədən hissələrini hərəkətə gətirən bu məşq eyni zamanda bütün əzələləri də çalışdırır. Bu məşq ayaqlardakı əzələləri dartmaqla (hərəkətə gətirməklə), ordakı artıq kalorini əritməklə bədənin möhkəmlənməsində müstəsna rol oynayır. Alimlərin araşdırmalarından sonra belə qənaətə gəlinib ki, oturaq işlə məşğul olan insanlar gün ərzində üç saatdan bir 10 dəqiqə bu hərəkətləri etməlidirlər. Bu, eyni zamanda insan psixologiyasını tənzimləyir.

*Şınav və ya jim:* bir çox insan bu hərəkətin çətin olduğunu düşünür. Fərqli şınav hərəkətləri çiyinlərdəki və qollardakı əzələləri hərəkətə gətirir. Bəzən düşünürük ki, şınav, sadəcə, orqanizmin yuxarı hissəsini inkişaf etdirir. Xeyr, bu, belə deyil, şınav bütün bədən hissələrinin məşq etməsinə zəmin yaradır. Bu hərəkət psixoloji durumla yanaşı, ürək və qan damarlarına faydalıdır, insanın daha çox onurğa sütununun düzgün durmasını təmin edir.

*Önə tullanma:* ayaq əzələlərini bərkidən bu hərəkət insan orqanizmində inanılmaz funksiyaya malikdir. Gün ərzində 15-20 dəfə bu hərəkəti etməklə 2 aydan sonrakı fərqi hiss edə bilərsiniz.

*Üzmək:* bədəni möhkəmləndirən, əzələləri hərəkət etdirən üzgüçülük, eyni zamanda təzyiqi düşürmək, ürəyi gücləndirmək və aerobik bədənə sahib olmaq üçün ən mükəmməl idman növüdür.

*Qaçmaq:* qaçmaq insanda stresi azaldır, ürək və qan-damar əzələlərinin sağlamlığını qoruyur, depressiya riskini aşağı salır və bütün bədənin sağlamlığını təmin edir. Bunlarla yanaşı, güclü, bərkimiş və incə görünən ayaqları formalaşdırır.

### Psixologiyanın idmanla tənzimlənməsi

İnsan idman edərkən psixoloji hazırlığı necə olmalıdır? İnsanların günə, eyni zamanda məşqə psixoloji hazırlığı onun temperamenti, xarakteri, yaşı, təcrübəsi və yaşadığı mühitlə əlaqədardır. İdmanda belə bir deyim var – fəaliyyət insanların fiziki və psixoloji fəallıqlarının cəmidir. İdman da bir fəaliyyət olaraq bu iki amili özündə birləşdirir. Məşq edərkən insan hər iki amili inkişaf etdirir, fiziki və psixoloji hörgülərin əhatəsində taktiki və texniki hazırlığın parametrlərini işləyir. Bu sahədə böyük təcrübəyə malik və idmanın icmal konsepsiyasını müəyyənləşdirən amerikalı müəllif Uilyam Morqan deyir: “Ənənəvi bədən tərbiyəsi, istisnasız olaraq, fiziki fəallığa və idmana dair tibbi və pedaqoji tədqiqatlara əsaslanırdısa, idman tədqiqatlarının yeni yaranan sahəsi daha böyük intellektual məqsədləri qarşısına qoyaraq, onu ənənəvi tibbi və pedaqoji, tarixi və sosioloji tədqiqatlarla tamamlayır”. Morqan hesab edir ki, idman psixologiyanın formalaşmasında əsas rol oynayır.

Bəs insan psixologiyasının idmanla tənzimlənməsi nədir? Bu, sarsılmaz inamdır, emosiyaları tənzimləmə qabiliyyətidir, sürətli reaksiyaya malik olmaqdır, analitik təfəkkürdür. İnsanın psixoloji hazırlığında psixiki proseslərin, duyğuların, qavrayışın, təsəvvürün, təxəyyülün, təfəkkürün, diqqətin, iradənin, hafizənin, nitqin və hissin, eləcə də fərdi psixiki xassələrin – temperamentin, xarakterin və qabiliyyətlərin inkişafına dair fərdi və kollektiv planların tərtibi zəruri sayılır. Orqanizmdə sinir sisteminin düzgün tənzimlənməsi idman zamanı psixoloji funksiyaların tərbiyə olunmasına imkan yaradır.

# Futzal üzrə yarış keçirilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Paralimpiya Federasiyasının təşkilatçılığı ilə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində paralimpiyaçılar arasında idmanın futzal növü üzrə yarış keçirilib. Yarışda hər biri 5 nəfərdən ibarət 6 komanda iştirak edib.

Yarışın keçirilməsində əsas məqsəd məhdud fiziki imkanlı gənclərin idmana olan maraqlarını artırmaqla onlarda sağlam həyat tərzinin təmin edilməsinə, istedadlı idmançıların aşkara çıxarılmasına, habelə bu kateqoriyadan olan gənclərin asudə vaxtlarının səmərəli keçməsinə nail olmaq idi.

Yarışın nəticələrinə görə, 1-ci, 2-ci və 3-cü yerlərə layiq görülən komandalara Paralimpiya Federasiyasının hədiyyələri, digər yarış iştirakçılarına isə diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Ağamalıyev Musa Vilayət oğlunun adına olan hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 284